Azərbaycan Texniki Universiteti

İnfrastruktur Bölmələrinin
Keyfiyyət Auditi üzrə Baza Planı

Baku 2025

GİRİŞ

Audit — hər hansı bir fəaliyyətin, prosesin və ya bölmənin əvvəlcədən müəyyən edilmiş keyfiyyət meyarlarına uyğunluğunu sistemli şəkildə yoxlamaq, qiymətləndirmək və inkişaf təklifləri vermək üçün aparılan obyektiv və sübuta əsaslanan yoxlama prosesidir.
Audit, ümumi mənada, təşkilat daxilində və ya xaricində həyata keçirilən proses, sistem, struktur və ya fəaliyyətlərin əvvəlcədən müəyyən edilmiş meyar və standartlara uyğunluğunun qiymətləndirilməsi və obyektiv sübutlara əsaslanaraq nəticələrin sənədləşdirilməsidir. Audit həm keyfiyyət təminatı, həm də davamlı inkişaf baxımından idarəetmənin vacib alətlərindən biridir.

Etimoloji və Tarixi Kontekst

"Audit" termini latınca "audire" – "dinləmək" sözündən qaynaqlanır. Əvvəllər audit yalnız maliyyə və mühasibat sahəsində tətbiq olunurdusa, bu gün onun funksiyası çoxşaxəli olub idarəetmə, əməliyyatlar, keyfiyyət, informasiya texnologiyaları, təhsil və xidmət sahələri də daxil olmaqla bir çox sahəni əhatə edir.

I. Auditin Əsas Məqsədləri

1. **Uyğunluğun qiymətləndirilməsi** – fəaliyyətlərin TKTA tələblərinə və Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununa uyğunluğunu müəyyənləşdirmək
2. **Risklərin aşkarlanması** – mövcud və potensial idarəetmə risklərini tanımaq
3. **İnkişaf imkanlarının müəyyənləşdirilməsi** – təşkilatın zəif və güclü tərəflərini sistematik şəkildə müəyyən etmək
4. **Düzəldici və qabaqlayıcı tədbirlərin təşkili** – tapıntılar əsasında fəaliyyət planları formalaşdırmaq
5. **Məhsuldarlığın və effektivliyin artırılması** – resursların daha məqsədyönlü istifadəsini təmin etmək
6. **Hesabatlılıq və şəffaflığın gücləndirilməsi** – maraqlı tərəflərin məlumatlandırılması və qərarvermə proseslərinin dəstəklənməsi

II. Təhsildə Audit: Nə üçün Vacibdir?

Ali təhsil müəssisələrində audit:

- Keyfiyyətin təminatını sistematik və sübut əsaslı hala gətirir;
- Akkreditasiyaya hazırlıq prosesini strukturlaşdırır;
- Tələbə və əməkdaş məmnunluğunu artırır;
- Resurslardan optimal istifadəni təşviq edir;
- Akademik və inzibati idarəetmənin qərarvermə keyfiyyətini artırır.

Audit sadəcə qiymətləndirmə deyil, **inkişafa açılan obyektiv güzgüdür**. Bu proses ali təhsil sistemində **etibar, şəffaflıq və dayanıqlı inkişaf** üçün fundamental alət rolunu oynayır.

Universitetlər üçün audit – yalnız hesabatlıq yox, **təkmilləşməyə gedən yol xəritəsidir**.

II. Hüquqi və Metodoloji Çərçivə
Əsas İstinadlar:
Audit fəaliyyətinin hüquqi əsasları əsasən **akkreditasiya meyarları**, **daxili tənzimləyici sənədlər**, həmçinin **milli normativ-hüquqi aktlar** çərçivəsində qurulmalıdır.
- Təhsildə Keyfiyyətin Təminatı Agentliyi (TKTA)
- Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu
- ESG 2015 (ENQA)
- AQAS Akkreditasiya Meyarları

Auditin Əsas Prinsipləri
1. Dürüstlük – etik və obyektiv davranış
2. Peşəkar təqdimat – dəqiq və balanslı məlumat
3. Müstəqillik – qərəzsiz fəaliyyət
4. Sübut əsaslı yanaşma – sənədli sübutlara əsaslanma
5. Risk əsaslı yanaşma – resursların yüksək riskli sahələrə yönəldilməsi
6. Davamlı təkmilləşmə – nəticələrin inkişaf üçün istifadəsi
7. Məlumatların məxfiliyi

III. AUDİTİN ƏHATƏ DAİRƏSİ
AQAS akkreditasiyası çərçivəsində universitetin infrastruktur bölmələrinin fəaliyyətini qiymətləndirmək, beynəlxalq keyfiyyət standartlarına uyğunluğunu ölçmək və nəticələrə əsaslanan inkişaf strategiyaları hazırlamaq.
Əhatə olunan struktur bölmələr:
- İKT Mərkəzi
- Kitabxana və İnformasiya Resursları
- İnsan Resursları (HR)
- Təsərrüfat və Logistika
- Təhlükəsizlik Xidməti
- Sosial xidmətlər və tələbə dəstəyi
- Maliyyə və Mühasibatlıq
- İnnovasiya və Rəqəmsallaşma üzrə bölmələr

IV. AUDİTİN PLANLAŞDIRILMASI VƏ TƏTBİQİ
Audit dövriliyi və vaxtlama:
- Hər semestr üzrə 1 dəfə
- Hər bölmə üçün 1 həftəlik qiymətləndirmə müddəti

Audit mərhələləri:

1. **Planlaşdırma** – ilkin məlumatların toplanması
2. **İcra** – yerində müşahidə, sənəd təhlili, müsahibələr
3. **Qiymətləndirmə və hesabat** – tapıntılar, sübutlar və nəticələr
4. **Düzəldici tədbirlər** – təkliflər və müddətlər
5. **İzləmə və reytinq** – təkmilləşdirmələrin monitorinqi və balla qiymətləndirmə

Metodologiya:

- Sənəd və siyasətlərin təhlili
- Müsahibələr və fokus qruplar
- Geribildirim anketləri (tələbə, işçi)
- Yerində müşahidə və texniki baxış
- SWOT təhlili (güclü, zəif tərəflər və imkanlar)

V. Qiymətləndirmə Kriteriyaları Və Uyğunluq Cədvəli

№	Bölmə	Qiymətləndirmə Kriteriyaları	Uyğunluq səviyyəsi
1	**İKT Mərkəzi**	**İT infrastrukturlarının dayanıqlığı və fasiləsiz işləməsi (uptime ≥ 99.9%)**	**✓✓ / ✓ / ✗ / –**
		Kibertəhlükəsizlik tədbirləri və risklərin idarə olunması	**✓✓ / ✓ / ✗ / –**
		Ehtiyat surət (backup) sistemlərinin avtomatlaşdırılması və test olunma dövriliyi	**✓✓ / ✓ / ✗ / –**
		İT xidmətlərindən istifadə edənlər arasında məmnunluq səviyyəsi	**✓✓ / ✓ / ✗ / –**
2	**Kitabxana və İnformasiya Resursları**	**Elektron resurslara giriş imkanları və istifadə statistikası**	**✓✓ / ✓ / ✗ / –**
		Kitabxana fondunun yenilənmə faizi	**✓✓ / ✓ / ✗ / –**
		Elektron kataloq və rəqəmsal arxiv funksionallığı	**✓✓ / ✓ / ✗ / –**
		İllik istifadəçi məmnuniyyəti sorğuları	**✓✓ / ✓ / ✗ / –**
3	**İnsan Resursları (HR)**	**Vakansiyaların dolma sürəti və işə qəbul müddəti**	**✓✓ / ✓ / ✗ / –**

		İşçi dövriyyəsi (turnover rate) və səbəblərin təhlili	✓✓ / ✓ / ✗ / –
		Daxili təlim proqramlarının sayı və iştirak faizi	✓✓ / ✓ / ✗ / –
		Əməkdaş məmnuniyyətinin illik ölçülməsi	✓✓ / ✓ / ✗ / –
4	**Təsərrüfat və Logistika**	**Binanın texniki xidmət və baxım planlarının icrası**	✓✓ / ✓ / ✗ / –
		Təmir və tikinti layihələrinin vaxtında və büdcə çərçivəsində icrası	✓✓ / ✓ / ✗ / –
		Enerji sərfiyyatına nəzarət və qənaət proqramları	✓✓ / ✓ / ✗ / –
		Təsərrüfat resurslarının optimal istifadəsi və israf səviyyəsi	✓✓ / ✓ / ✗ / –
5	**Təhlükəsizlik Xidməti**	**Giriş-çıxış nəzarət sistemlərinin işləkliyi**	✓✓ / ✓ / ✗ / –
		Video müşahidə sisteminin əhatə dairəsi və texniki vəziyyəti	✓✓ / ✓ / ✗ / –
		Təhlükəsizlik insidentlərinin sayı və cavab müddəti	✓✓ / ✓ / ✗ / –
		Fövqəladə hallara hazırlıq üzrə təlimlər	✓✓ / ✓ / ✗ / –
6	**Sosial xidmətlər və tələbə dəstəyi**	**Psixoloji və sosial dəstək xidmətlərinin əlçatanlığı**	✓✓ / ✓ / ✗ / –
		Karyera mərkəzinin fəaliyyət göstəriciləri və işlə təminetməyə təsiri	✓✓ / ✓ / ✗ / –
		İnklüzivlik siyasətinin icrası və tədbirlər	✓✓ / ✓ / ✗ / –
		Tələbə məmnuniyyəti və geribildirim mexanizmləri	✓✓ / ✓ / ✗ / –
7	**Maliyyə və Mühasibatlıq**	**Büdcənin illik planlanması və icra səviyyəsi**	✓✓ / ✓ / ✗ / –

		Maliyyə hesabatlarının dəqiqliyi və vaxtında təqdimatı	✓✓ / ✓ / ✗ / –
		Xərclərin optimallaşdırılması üzrə illik analizlər	✓✓ / ✓ / ✗ / –
		Vergi və qanunvericiliyə uyğunluq göstəriciləri	✓✓ / ✓ / ✗ / –
8	**İnnovasiya və Rəqəmsallaşma**	**Rəqəmsal transformasiya planlarının mövcudluğu və icra səviyyəsi**	✓✓ / ✓ / ✗ / –
		İnnovasiya yönümlü təkliflərin sayı və həyata keçirilmə faizi	✓✓ / ✓ / ✗ / –
		Yeni texnologiyaların tətbiqində fakültə və bölmələrin iştirakı	✓✓ / ✓ / ✗ / –
		Rəqəmsal platformalardan istifadə məmnuniyyəti	✓✓ / ✓ / ✗ / –

VI. HESABATLANDIRMA VƏ İZLƏMƏ

- Hesabatlar Keyfiyyətin Təminatı Şöbəsi rəhbərinə təqdim edilir
- Hər tapıntı üzrə konkret düzəldici fəaliyyət təklif olunur
- İcra müddəti: 30–60 gün
- Sonrakı auditlərdə əvvəlki tövsiyələrin yerinə yetirilməsi izlənir
- Reytinq sistemi:
  - **A (90-100)** – Tam uyğunluq
  - **B (75-89)** – Qismən uyğunluq
  - **C (60-74)** – Təkmilləşməyə ehtiyac
  - **D (0-59)** – Ciddi uyğunsuzluq

VII. SWOT təhlili

Məqsəd: İnstitusional akkreditasiya və inkişaf prioritetləri ilə uyğunlaşdırılmış strateji qiymətləndirmə və daxili təkmilləşdirmə planlaşdırması

SWOT Analiz

GÜCLÜ TƏRƏFLƏR

(Daxili, Müsbət)

- Mühəndislik və tətbiqi elmlər üzrə əmək bazarında yüksək tələbat mövcuddur.
- Elmi-pedaqoji fəaliyyətdə təcrübəyə malik professor və fəlsəfə doktorlarının faizi yüksəkdir.
- Texniki təhsildə uzunmüddətli akademik ənənə və tanınmış brend imici mövcuddur.
- Laboratoriyalar, texnologiya parkları və innovasiya mərkəzləri inkişaf potensialına malikdir.
- ESG və TKTA ilə ilkin mərhələdə tanışlıq və tətbiq təcrübəsi mövcuddur.



ZƏİF TƏRƏFLƏR

(Daxili, Mənfi)

- Daxili bölmələr arasında gecikmələr və koordinasiya problemləri.
- Vahid olmayan, ayrı-ayrı bölmələrdə parçalanmış İT sistemləri.
- Beynəlxalqlaşmaya və Erasmus+ proqramında iştirakın məhdudlaşdırılması.
- Əmək bazarı statistikalarının natamam olması və əlaqələndirmənin zəifliyi.
- Tələbə təşəbbüslərinə və sahibkarlıq mentorluğuna məhdud dəstək.



FÜRSƏTLƏR

(Xarici, Müsbət)

- Tədris, qiymətləndirmə və qərarvermə proseslərini çevik və innovativ şəkildə transformasiya etmək potensialı.
- Erasmus+ və Horizon Europe proqramları yeni mobillik və tədqiqat maliyyələşdirmə imkanları təqdim edir.
- Amalı təlim, birgə layihələr və məşğulluq yollarını dəstəkləyir.
- ESG və TKTAprinsiplərinin tam inteqrasiyası üçün fürsət.
- SDG 4, 9, 11 və 13 ilə uyğunlaşma görünürlüyü artırır və qlobal əməkdaşlığı gücləndirir.



TƏHDIDLƏR

(Xarici, Mənfi)

- Yerli universitetlər arasında tələbə qəbulu və görünürlük sahəsində rəqabət.
- Təhsil qanunvericiliyində yeniliklərə uyğunlaşmaqda çətinliklər.
- Ən yaxşı tələbə və akademik heyətin xarici təhsil müəssisələrinə itirilməsi.
- İnfrastruktur və dəstək sistemlərinin yenilənməsinin gecikməsi.
- Tələbə səsinin institusional proseslərdə kifayət qədər təmsil olunmaması.



SWOT Təhlili Əsasında Fəaliyyət Planı

Addım	Təsvir	Məsul şəxs(lər)
1	Sorğular, müsahibələr və daxili hesabatlar vasitəsilə məlumatların toplanması	Keyfiyyətin Təminatı Şöbəsi
2	SWOT matrisinin təhlili və sənədləşdirilməsi	Audit Mütəxəssisi
3	Zəifliklərin və təhdidlərin aradan qaldırılması üçün fəaliyyət planının hazırlanması	Fakültə Rəhbərliyi
4	KPI-ların monitorinqi və illik qiymətləndirmə	Keyfiyyətin Təminatı Şöbəsi

VIII. Risk Matrix

Bölmə	Risk	Ehtimal	Təsir	Risk səviyyəsi	Qarşısını almaq üçün nə etmək olar?
İT xidmətləri	Sistemlər üzrə prosedurlar sənədləşməyib, işçilər fərqli qaydada icra edir	Orta	Yüksək	Yüksək	Yazılı təlimatlar, SOP
İT xidmətləri	Yedəkləmə siyasəti izlənmir, testlər sənədləşmir	Orta	Yüksək	Yüksək	Yedəkləmə proseduru, rüblük test hesabatları
Kitabxana	Elektron resurs istifadəsi üzrə keyfiyyət göstəriciləri izlənmir	Orta	Orta	Orta	İstifadə statistikasının mütəmadi təhlili
HR	İşçilərin təlim və inkişaf planları sənədləşmir	Orta	Yüksək	Yüksək	İllik təlim planı və iştirak qeydləri
HR	Yeni işçilər üçün uyğunlaşdırma proqramı aparılmır	Orta	Orta	Orta	Standart onboarding proseduru
Sosial xidmətlər	Tələbə şikayət və təklifləri rəsmi sistemdə toplanmır	Orta	Yüksək	Yüksək	Şikayət/təklif qutusu, onlayn form və aylıq təhlil
Maliyyə	Daxili nəzarət addımları sənədləşmir	Orta	Yüksək	Yüksək	Sənədləşmiş təsdiq matrisi
Maliyyə	Uyğunsuzluq halları vaxtında qeydə alınmır	Orta	Orta	Orta	Uyğunsuzluq qeyd jurnalı və izləmə planı
İnnovasiya	Yeni layihələrdə keyfiyyət tələbləri əvvəlcədən müəyyən olunmur	Orta	Yüksək	Yüksək	Layihə əvvəlində keyfiyyət meyarlarının təsdiqi
İnnovasiya	Keyfiyyət göstəricilərinin izlənməsi yalnız formal aparılır	Orta	Orta	Orta	KPI dashboard, aylıq menecment review

IX. KPI Sistemi – Keyfiyyətin Təminatı Göstəriciləri

Bölmə	KPI adı	Hesablama üsulu	Tezlik	Məqsəd dəyəri
İT xidmətləri	Sənədləşmiş prosedurların əhatə faizi	(Sənədləşmiş prosedur sayı / Ümumi proses sayı) × 100	Rüblük	≥ 95%
İT xidmətləri	Yedəkləmə testlərinin uğurluluq faizi	(Uğurlu test sayı / Ümumi test sayı) × 100	Rüblük	≥ 90%
Kitabxana	Elektron resurs istifadəsi izləmə faizi	(İzlənən KPI-lar / Müəyyən olunmuş KPI-lar) × 100	Aylıq	100%
HR	İllik təlim planının icra faizi	(Keçirilən təlimlərin sayı / Planlaşdırılmış təlimlərin sayı) × 100	İllik	≥ 85%
HR	Onboarding tamamlama faizi	(Onboarding keçmiş işçilər / Yeni işçilər) × 100	Rüblük	≥ 95%
Sosial xidmətlər	Şikayətlərin cavab müddəti (orta gün)	Ümumi cavab günləri / Şikayət sayı	Aylıq	≤ 5 gün
Maliyyə	Uyğunsuzluq qeydlərinin bağlanma müddəti (orta gün)	Ümumi bağlanma günləri / Uyğunsuzluq sayı	Rüblük	≤ 10 gün
Maliyyə	İkiqat təsdiqlə icra olunan əməliyyatların faizi	(İkiqat təsdiqli əməliyyatlar / Ümumi əməliyyatlar) × 100	Aylıq	100%
İnnovasiya	Layihələrdə əvvəlcədən müəyyən olunmuş keyfiyyət tələblərinin faizi	(Keyfiyyət tələbi olan layihələr / Ümumi layihələr) × 100	İllik	≥ 90%
İnnovasiya	KPI-ların menecment review-da təhlil faizi	(Təhlil edilən KPI-lar / Ümumi KPI-lar) × 100	Rüblük	100%

Hazırladı:

Kənan Zərbiyev,

Audit mütəxəssisi

İmza:_____

Təsdiqlədi:

Pərvanə Mövsümova,

Keyfiyyətin təminatı şöbəsinin müdiri

İmza:_____